AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE MILITARY–POLITICAL POSITION AND ROLE OF THE ISLAMIC REPUBLIC OF PAKISTAN IN THE MODERN WORLD

**Iftikhar Jafarov**[1]

**UDC:** 355.4(549.1):327.5:341.67
**LBC:** 68.49(5Pk):66.4(5Pk)
**HoS:** 57
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.15-30

**Keywords:**

Pakistan, Geostrategic position, Defense strategy, Cooperation, Nuclear weapons, Counterterrorism

## ABSTRACT

An analysis has been conducted on the current geostrategic situation of the Islamic Republic of Pakistan. The internal, regional, and international situation of Pakistan, the only nuclear-armed state of Islamic world, has been analyzed. Against the backdrop of territorial disputes between regional states, the main elements threatening Pakistan's national security have been discussed. The impact of the ongoing global power struggles on Pakistan has been analyzed. The interests of major powers within the context of Pakistan have been highlighted. A brief analysis of the challenges and opportunities Pakistan faces due to its geostrategic position has been conducted. From a military perspective, it has been demonstrated how critical the territorial factor is for Pakistan in a potential conventional war with India. A brief analysis of Pakistan's defense strategy and military power has been provided. The key outlines of Pakistan's nuclear doctrine have been shown. Attention has been drawn to the dangerous nature of the "Hindutva" ideology of the current Indian government, which is attempting to create hegemony in the region. The analysis also includes India’s rapid economic growth and its increasing military spending, which has placed it among the top in the global arms race.

[1] Military Administration Institute, National Defense University; Baku, Azerbaijan
E-mail: iftikhar_975@mail.ru
https://orcid.org/0009-0009-5274-8962

**To cite this article:** Jafarov, I. [2025]. The Military–Political Position and Role of the Islamic Republic of Pakistan in the Modern World. *History of Science journal*, *6*(2), pp.15-30.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.15-30

***Article history:***
*Received: 16.03.2025*
*Accepted: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜASİR DÜNYADA HƏRBİ–SİYASİ YERİ VƏ ROLU

**İftixar Cəfərov**[1]

**UOT:** 355.4(549.1):327.5:341.67
**KBT:** 68.49(5Pk):66.4(5Pk)
**HoS:** 57
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.15-30

**Açar sözlər:**

Pakistan,
Geostrateji mövqe,
Müdafiə strategiyası,
Əməkdaşlıq,
Nüvə silahı,
Terrorizmlə mübarizə

## ANNOTASİYA

Məqalədə Pakistan İslam Respublikasının geostrateji baxımdan mövcud vəziyyyətinə nəzər salınmış, islam dünyasının nüvə silahına sahib yeganə dövlət kimi daxili, regional və beynəlxalq mühütdə mövcud vəziyyəti analiz edilmişdir. Region dövlətlərinin bir birinə qarşı olan ərazi iddiaları fonunda, Pakistanın milli təhlükəsizliyini təhdid edən əsas elementlərə toxunulmuşdur. Dünyada hal - hazırda davam edən hakimiyyət mübarizəsinin Pakistana təsirləri, və böyük dövlətlərin Pakistan kontekstində olan maraqları, həmçinin ölkənin geostrateji mövqeyinə görə qarşılaşdığı çağırış və fürsətlər müəyyən edilmişdir. Hərbi nöqteyi nəzərdən Pakistanın Hindistanla ehtimal olunan konvensional müharibədə ərazi amilinin nə dərəcədə kritik olduğunun vacibliyinə vurğu edilmiş, ölkənin müdafiə strategiyasının və hərbi gücünün təhlili həyata keçirilmiş, nüvə doktrinasının əsas konturları və proksi əməliyyatlar və terrorla mübarizə fəaliyyətlərində qazanmış olduğu təcrübənin əhəmiyyəti göstərilmişdir.

Məqalədə həmçinin regionda hegemonluğa çan atan Hindistanın indiki hakimiyyətinin "Hindutva" ideologiyasının təhlükəli mahiyyətinə, sürətli iqtisadi inkişafı kontekstində hərbi xərclərinin artması və regional və beynəlxalq silahlanma yarışında ilk sıralara yüksəlməsi səbəblərinə aydınlıq gətirilmişdir. Pakistanın proksi əməliyyatlar və terrorla mübarizə fəaliyyətləri təcrübəsinin əhəmiyyətinə toxunulur.

[1] Hərbi İdarəetmə İnstitutu, Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: iftikhar_975@mail.ru
https://orcid.org/0009-0009-5274-8962
**Məqaləyə istinad:** Cəfərov, İ. [2025]. Pakistan İslam Respublikasının Müasir Dünyada Hərbi–Siyasi Yeri və Rolu. *History of Science jurnalı*, 6(2), səh.15-30.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.15-30

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 16.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 21.04.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ВОЕННО–ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ И РОЛЬ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ПАКИСТАН В СОВРЕМЕННОМ МИРЕ

**Ифтихар Джафаров**[1]

**УДК:** 355.4(549.1):327.5:341.67
**ББК:** 68.49(5Па):66.4(5Па)
**HoS:** 57
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.15-30

**Ключевые слова:**

Пакистан,
Геостратегическое положение,
Оборонная стратегия,
Сотрудничество,
Ядерное оружие,
Борьба с терроризмом

## АННОТАЦИЯ

Была проведена аналитика текущей геостратегической ситуации Исламской Республики Пакистан. Были проанализированы внутреннее, региональное и международное положение Пакистана, единственного государства исламского мира, обладающего ядерным оружием. На фоне территориальных претензий между региональными государствами были рассмотрены основные элементы, угрожающие национальной безопасности Пакистана. Были проанализированы последствия текущей глобальной борьбы за власть для Пакистана и подчеркнуты интересы крупных держав в контексте Пакистана. Проведен краткий анализ вызовов и возможностей, с которыми сталкивается Пакистан, исходя из его геостратегического положения. С военной точки зрения показано, насколько критичен территориальный фактор для Пакистана в случае возможной конвенциональной войны с Индией. Проведен краткий анализ оборонной стратегии Пакистана и его военной мощи. Описаны основные контуры ядерной доктрины Пакистана. Обращено внимание на опасность идеологии "Хиндутава" нынешнего индийского правительства, которое пытается создать гегемонию в регионе. Проанализирован быстро развивающийся экономический рост Индии и ее увеличение военных расходов, что позволило ей занять ведущие позиции в международной гонке вооружений.

[1] Институт военного управления, Национальный университет обороны; Баку, Азербайджан
E-mail: iftikhar_975@mail.ru
https://orcid.org/0009-0009-5274-8962

**Цитировать статью:** Джафаров, И. [2025]. Военно–политическое положение и роль Исламской Республики Пакистан в современном мире. *Журнал History of Science*, *6*(2), с.15-30.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.15-30

***История статьи:***
*Статья поступила в редакцию: 16.03.2025*
*Отправлена на доработку: 21.04.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

*Coğrafiya taleyindir.*
(İbn Xaldun. Müqəddimə əsəri. İbn Xaldunun müəllifi olduğu "Müqəddimə" əsərində birbaşa olaraq belə bir deyim mövcud deyil. Coğrafiya elmi əsasən, dünya relyefinin və formalaşmasının texnogen amillərini və iqlimini öyrənən elmdir (müəllif))

Sürətlə qloballaşan dünyanın inkişaf dinamikası güc mərkəzlərinin cazibəsi əhatəsində formalaşmaqdadır [1]. Qlobal dünyada gedən hakimiyyət yarışı müxtəlif bölgələrdə hərbi münaqişələr fonunda müşahidə olunmaqdadır [2]. Bu da öz növbəsində mövcud uni-multipolyar və ya çoxtərəfli əməkdaşlığa söykənən güc balansının əhəmiyyətini hər bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsində əsas amillərdən birinə çevirir. Cənubi Asiya regionu da intensiv geosiyasi oyunların episentri hesab edilir. Belə bir mürəkkəb regionda Pakistanın geostrateji aktora çevrilmək uğrunda apardığı mübarizənin mahiyyətinin tədqiqi və perspektivləri mövzunun *aktuallığına* dəlalət edir. Tədqiqatın *obyektini* Cənubi Asiyada yerləşən Pakistan İslam Respublikasının yerli, regional və beynəlxalq ölçülərdə milli təhlükəsizliyin təmin edilməsi siyasəti təşkil edir. *Predmetini* isə, Pakistanın regional və global siyasətdə rolu, onun hərbi-strateji potensialı, beynəlxalq təşkilatlarla əməkdaşlığı, nüvə gücü kimi mövqeyi, qonşu ölkələrlə münasibətləri və bu faktorların dünya siyasətinə təsiri məsələlər əhatə edir.

Bu tədqiqatda əsasən struktur – funksional və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur.

## *2.Əsas Hissə*

İki və çoxtərəfli əməkdaşlıq müasir dövrdə dövlətlərin milli maraqlarının təmin edilməsi istiqamətində mühüm amilə çevirilmişdir [2, s.40]. Buna təkan verən bir çox səbəblər vardır. Onlardan ikisini xüsusilə vurğulamaq vacibdir. Birincisi, "soyuq müharibə"-nin bitməsilə "super güclər"- dən birinin süqutu və, ikincisi dünya hegomoniyasına nail olmağa çalışan Amerika Birləşmiş Ştatlarının (ABŞ) genişlənməkdə olan ekspansiyasının sürətləndirdiyi qlobal hakimiyyət mübarizəsi. İkinci "soyuq müharibə" kimi qələmə verilən bu dövrdə yaranan bir çox münaqişələr günümüzə qədər davam etməkdədir. Eyni zamanda yenidən formalaşan dünya düzənində "yumşaq güc" faktorlarına üstünlük verilir.

Joseph Nye tərəfindən ötən əsrin sonlarında elmi ədəbiyyata daxil olan "yumşaq güc" anlayışı geosiyasi münasibətlərinin tənzimlənməsində təsir vasitəsi olaraq, hərbi güc və iqtisadi sanksiyaların xaricində olan digər aspektləri özündə ehtiva edir [3, s.40]. Bunlar diplomatik, mədəni və təhsil, siyasi, ticarət və s. amillərdən ibarətdir. Müəllifə görə "sərt güc" hərbi və iqtisadi amillərdən ibarətdir. Eyni zamanda bu komponentlərin qarışıq formalarının təzahürlərinə də rast gəlməkdəyik [4, s.17-19]. Belə ki, 1980-ci il Moskva şəhərində keçirilən olimpiadanın rəsmi sponsorlarından biri ABŞ-a məxsus "Coca-Cola" şirkəti idi. "Pepsi-Cola" şirkəti 1989-cu ildə böyük məbləğ qarşılığında sovet donanmasının böyük bir hissəsini reklam kompaniyasının üzü olaraq istifadə etmişdir [Şəkil 1].




**Şəkil 1.**

### *3.Pakistanın Geostrateji Mövqeyi*

Asiya qitəsi qlobal miqyasda dünya əhalisinin böyük hissəsinə sahibdir. Hərbi və İqtisadi olaraq böyük potensiala sahib olan dövlətlərin qitədə olması beynəlxalq təhlükəsizlik mühütünə də böyük təsirlər göstərir. Nüvə arsenalına malik olan dövlətlərin beşinin bu qitədə olması hərbi amili daha kritik edir. Qlobal hakimiyyət mübarizəsində ABŞ digərləri və qərbə qarşı milli maraqlarının təmin edilməsi üçün şərq və digərlərinin birləşdiyi geostrateji zəmindir.

### *3.1.Coğrafi mövqeyin siyasi və hərbi əhəmiyyəti*

1947-ci il Britaniya Hindistanından ayrılaraq müstəqilliyini elan edən Pakistan Asiya qitəsinin cənubunda yerləşir. 1971-ci ilə qədər aralarında 1700 km məsafə olan Qərbi və Şərqi Pakistan kimi mövcud olmuşdur. Pakistanın belə ərazi bölgüsü qeyd edilən coğrafiyalarda müsəlman əhalinin kompakt məskunlaşması ilə əlaqəlidir. Britaniya protektaratlığı ləğv olunan zaman 1930-cu ildən formalaşan Müsəlman Liqası yaşadıqları cöğrafiyada islam dövləti təsis etməyi tələb etdilər. Şərqi Pakistan müstəqilliyini elan etdikdən sonra, Banqladeş Xalq Demokratik Respublikası kimi tanınır. Pakistan Şimaldan Himalay dağları, cənubdan Oman dənizi-Hind okeanı ilə əhatəli 23,37 şimal uzunluğu və 61,67 şərq enində olmaqla cöğrafi mövqeyə sahibdir. Ümumi ərazisi 881.913 km2 (dünya sıralamasında 36-cı yerdə), əhalisi 231 milyon nəfər (Pakistanın əhalisinin qeydiyyatı hökumət tərəfindən rəsmi olaraq sonuncu dəfə 1988-ci ildə aparılıb. 2024-cü ilə qədər olan məlumat bazasında Beynəlxalq Valyuta Fondunun (İMF) hesablamaları əsas götürülmüşdür) olaraq dəyərləndirilir. (Azad Kəşmir vilayəti daxil olmaqla) hökümət quruluşu parlamentli respublikadır. Rəsmi dili ingilis dili, milli dili “urdu” (Urdu sözü türk dilindəki “ordu” sözünün orfoqrafik şəkil dəyişməsidir. Başqa formada fars dilindəki termini ilə “ləşkəri” deyə də tərif edilir. “Pakistanın Müasir Tarixi” kitabı əsas götürülmüşdür.) olmaqla iyirmiyə yaxın yerli dil əhali tərəfindən istifadə olunmaqdadır. Əhalinin 96%-ni müsəlmanlar, 4%-ni xristianlar, buddistlər, hindlilər təşkil edir. Milli valyutası pakistan rupisidir. Paytaxtı 1967-ci ildən etibarən İslamabad şəhəridir. Çin Xalq Respublikası ilə şimal, Hindistan Respublikası ilə şərq və cənubi-şərq, cənubdan Oman Körfəzi və Ərəb dənizi, cənub-qərbdən İran İslam Respublikası və şimal-qərbdən Əfqanıstan İslam Respublikası ilə dövlət sərhədlərinə sahibdir. Dəniz sərhədi 1046 km, quru sərhəddi 5865 km olmaqla, ümumi uzunluğu 6911 km- dir. Ərazinin texnogen forması quraq çöllərdən tutmuş mürəkkəb dağlıq ərazilərə və buzlaqlara qədər müxtəlif formalara sahibdir. Buna bağlı olaraq tropik iqlim tipiylə kəskin kontinental iqlim tipləri arasında illik yağıntının dünyada ən az olduğu ölkələrdən biridir. İnzibati olaraq dörd əsas əyalətdən: Sindh, Pəncab, Xeybər Puxtunxva, Bəlucistan, mübahisəli Kəşmir bölgəsində Gilgit Baltistan və Azad Kəşmir olmaqla iki muxtar vilayətdən ibarətdir. Kəraçi, lahor, Pişəvər, Quetta, Müzəffərabad, Heydərabad, Gujranvala əhalinin sayına görə böyük şəhərlərdir [5]. Sindh əyalətində geniş miqdarda karbohidrogen ehtiyatları aşkar edilib işlənir. Bəlucistan və Xeybər Puxtunxva əyalətlərində təbii qaz və neft ehtiyatları qızıl yataqları aşkar edilmişdir. Bu yataqların tədqiqi, genişləndirilməsi və istismarı əyalət idarə üsulu səbəbindən səmərəli şəkildə həyata keçirilmir. Bu iki əyalətdə Pakistan konstitusiyası əsasında Federal və Ərazi İnzibati Tayfa İdarə Üsulu tətbiq edilir. Tayfa rəhbərləri əldə olunacaq gəlirdən böyük payın onlara çatmasını tələb etdiyi üçün, dövlətin mərkəzi hakimiyyətinin bu regionlara investitsiya qoyulması siyasətinə mane olurlar. Digər əyalətlərdə təbii ehtiyatlardan dünya miqyasında ölçüyə gələcək həcmdə kömür, müxtəlif minerallar, mis, dəmir filizi, duz, əhəng daşı və s. xeyli miqdarda var. Milli gəlirin əsas hissəsi kənd təsərrüfatı məhsulları, tekstil, dəri istehsalı və satışı hesabına başa gəlir. Dəniz iqtisadiyyatı potensialı yüksək olan Pakistan bu imkanlardan geniş istifadə etmir. Balıqçılıq təsərrüfatı sahildə yaşayan yerli əhalinin məşğuliyyəti olaraq qalır. Dəniz yoluyla yüklərin daşınması Kəraçi, Qvadar limanlarından həyata keçirilir. Sahil hövzəsi, nəzarət zolağında olan Oman dənizinin böyük hissəsində dəniz turizmi və təbii ehtiyatların istifadəsi və digər

imkanlar hələ də həyata keçirilməyib. Bütün bu imkanlara və təbii resurslara baxmayaraq Pakistanın dünya iqtisadiyyatındakı payı 0.1% dərəcəsindədir.

Pakistanın yerləşdiyi coğrafiya, geosiyasi olaraq Cənubi Qafqaz regionu ilə oxşardır. Onun strateji mövqeyi, həm regional, həm də qlobal siyasətdə mühüm rol oynayır. Pakistan, Hindistan yarımadasının qərbində yerləşərək, Orta Asiya, Yaxın Şərq və Afrika, Cənubi Asiya və Cənubi-Şərqi Asiya arasında bir keçid nöqtəsi kimi çıxış edir. İslam dünyası və digərləri arasında əlaqə rolunu oynayır. Bu unikal mövqe Pakistana siyasi, iqtisadi və hərbi baxımdan beynəlxalq münasibətlər sistemində xüsusi əhəmiyyət qazandırır.

### *3.2.Pakistanın qonşuları və regional münasibətləri*

Əhəmiyyətli regional və beynəlxalq nəqliyyat dəhlizlərinin bəziləri Pakistanının ərazisindən keçir [6]. Qlobal hakimiyyət mübarizəsinin əsas aktorlarından Çin, iqtisadi imkanları qlobal miqyasda sürətlə artırmaqda olan Hindistan, beynəlxalq sanksiyalara məruz qalmış İran, iqtisadi və siyasi böhran vəziyyətində olan Əfqanıstanla həmsərhəddir. Pakistan beynəlxalq hüquq normaları daxilində qonşu dövlətlərin hər biri ilə sıx münasibətlərə sahibdir. "Yumşaq və sərt güc" elementləri əhatəsində əlaqələrə, əməkdaşlıqlara sahibdir. Bununla bərabər region dövlətlərinin bir-biriylə ərazi iddialarına bağlı ziddiyyətləri var. Separatizm, dini və ideoloji radikalizm, teokratiya, terrorizm və proksi elementlər regional təhlükəsizlik mühütünü daim təhdit edir, silahlı münaqişə və eskalasiyalara təkan verir. Kəşmir məsələsi Pakistan, Hindistan və Çin münasibətlərinin ən həssas hissəsidir [7]. Pakistanın geostrateji mövqeyi onun daxili və xarici siyasətini müəyyən edən əsas faktorlar sırasındadır. O, Qərb dünyası ilə müsəlman dünyası arasında bir körpü rolunu oynamaqla yanaşı, ABŞ, Çin və Rusiya kimi qlobal güclərlə mühüm tərəfdaşlıq əlaqələrinə malikdir. Xüsusilə, Pakistan-Çin iqtisadi və hərbi əlaqələri, həmçinin strateji tərəfdaşlıq münasibətləri, ABŞ-ın regiondakı maraqlarına da təsir edir. Hindistan ilə davam edən tarixi rəqabət də Pakistanın qlobal siyasətdəki yerini müəyyənləşdirən əsas faktorlardandır. Pakistanın qərb əyalətlərinin əhalisi qonşu İran və Əfqanıstanda yaşayan yerli əhali ilə qohumluq əlaqələrinə malikdir. Kəşmir məsələsində Pakistan üzərində üstünlüyün qazanılması üçün Hindistan proksi elementlərdən istifadə edərək, Pakistanın daxili təhlükəsizliyinə məhz bu regionlardan təhdidlər yaradır [8]. Bu da öz növbəsində Pakistanın İran və Əfqanıstan ilə münasibətlərinin möhkəmlənməsinə öz mənfi təsirini göstərir. Əfqanıstan ərazisində son əlli ildə baş verən siyasi və hərbi dəyişikliklər Pakistana öz təsirini ayrıca göstərmişdir. Burada üç amil daha çox təhlükəlidir: miqrantların, nəzarətdən kənar qalan silahların və narkotik maddələrin qanunsuz dövriyyəsi.

Digər Cənubi Asiya region dövlətləri Nepal, Butan, Banqladeş, Şri Lanka və Maldiv adalarıdır. Bu dövlətlərlə Pakistan regional əməkdaşlığı sıx şəkildə həyata keçirir. Regional təhlükəsizliyin təmin edilməsində mövcud güc faktorlarından; ticarət, mədəni, diplomatik, siyasi və hərbi aspektlərdən geniş istifadə edilməklə regional əlaqələr davam etdirilir. Banqladeş ilə münasibətlərin tarixi kökü həssas bağlara dayanır. Banqladeşin müstəqilliyinin əldə olunmasında əsas rolu 1971-ci ilin vətəndaş müharibəsi oynayıb. Hindistan və Sovet İttifaqı separatçılıq siyasətini dəstəkləyərək Banqladeşi Pakistandan ayırmağa müvəffəq oldular. Pakistan Banqladeşin müstəqilliyini 1973-cü ildən tanıyır. Banqladeş bu gün də Hindistanın siyasi təsiri altında qalmaqdadır [9].

### *3.3.Böyük güclərin Pakistan siyasətinə yanaşması*

Hələ XIX əsrdə Rusiya və Britaniya imperiyaları arasında gedən hakimiyyət mübarizəsi "Böyük Oyun" ("Böyük oyun" Xəzər dənizindən Cənubi Asiya və Şərqi Himalaylara qədər olan ərazilər uğrunda Rusiya və Britaniya imperiyaları arasında gedən mübarizəni ifadə edir) regionun geostrateji əhəmiyyətini vurğulayır. Mərkəzi və Cənubi Asiya üzərində siyasi və strateji üstünlük hər zaman əhəmiyyət kəsb etməkdədir. Bu amil böyük güclərin də Pakistana yanaşma siyasətinə təsirsiz ötüşməyib. Pakistanın müstəilliyinə qovuşduğu tarix "soyuq müharibə"- nin başladığı dövrə təsadüf edir. SSRİ ilə 1948-ci ildə yaradılan əlaqələr ABŞ- nin bölgədəki hakimiyyət yarışını hərəkətə keçirmişdir. Qlobal siyasi hakimiyyət

yarışında Pakistanın siyasi elitasının kommunist ideologiyasına və yayılmasına qarşı təşlkilatlandırlması üçün sui-qəsdlər, hakimiyyət çevrilişləri həyata keçirilmiş, militarist hökümət formalaşdırılmışdır. Anti-komunist paktlara üzv olan və onlarla əməkdaşlıq edən Pakistanla SSRİ-nin əlaqələri qırılma həddinə qədər gəlmişdir. Pakistan Şimali Atlantika Əməkdaşlıq Təşkilatının (NATO) üzvü olmayan müttəfiqinə çevirilmişdi. 1960-cı il U-2 insidentinə (1 May 1960 cı il atrixində sovet ərazisində casus kəşfiyyat uçuşlarını həyata keçirən Lockhid Martin U-2 təyyarəsinin vurulması. Təyyarənin plan üzrə Pakistanda Pişəvər şəhərindən havalanaraq, Baykonur-Sverdlovsk istiqamətində sovet ərazisindəki hərbi əhəmiyyətli obyektlərin aşkarlanması və müşahidəsi uşuşu həyata keçirilmişdir) görə Pakistan nüvə təhdidi ilə də üzləşmişdir. Pakistanın bu siyasi mövqeyinə görə “Kəşmir Məsələsi” SSRİ-nin bitərəf münasibəti ilə üzləşmişdir. SSRİ– də şəxsiyyət kultunun yıxılmasıyla mədəni, ticari, iqtisadi əməkdaşlıqlar yenilənmiş, enerji və metallurgiya sahəsində birgə fəaliyyətlər həyata keçirilmişdir. Əfqanıstana hərbi müdaxilə Pakistana imkanlar həm də təhditlər gətirdi. ABŞ Pakistanın geostrateji mövqeyini SSRİ- yə qarşı istifadə etmək üçün yerli hökümətə maliyyə dəstəyini artırmaqla bərabər, ordunun arsenalının yenilənməsinə də şərait yaratdı [10]. SSRİ-nin süqutundan sonra Rusiya Federasiyası ilə əlaqələr sabit vəziyyətə gəlmişdir.

ABŞ- nın Pakistanla regional olaraq sərhəd təması olmasa da, regionda geosiyasi maraqlarını həmişə gücləndirmişdir. ABŞ-nın ən böyük diplomatik xarici missiya qüvvəsi Pakistan ərazisindədir. 11 sentyabr hücumu ABŞ-nın Cənubi Asiya siyasətini yenidən şəkilləndirmişdir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA-Central İntellegence Agensy) ölkə xaricində ən iri həcmdə saxladığı əməliyyat taktiki qrupu 2011-ci ilə qədər məhz Pakistanda yerləşdirilmişdi [11]. Osama Bin Ladenin 2011- ci ildə Pakistanda, Paytaxt İslamabaddan 40 km uzaqlıqda, Pakistan Hərbi Akademiyasının yerləşdiyi yerin yaxınlığında öldürülməsi fərqli müzakirələrə səbəb olmuşdur. Regionda ABŞ- nın dəstəklədiyi siyasi hərbi ünsürlərin, Pakistanın milli təhlükəsizliyinə regional təhdidləri bu gün də artmaqda davam edir. Pakistan-Çin əlaqələrini təhdid kimi qəbul edən ABŞ Hindistanla birgə əks təşəbbüslərin formalaşdırılmasında aktiv iştirak edir. Bu da beynəlxalq və regional münasibətlərə öz təsirlərini göstərir [12]. Rusiya enerji dəhlizlərini şərqə doğru Cənubi Asiyadan keçməklə yeniləmək istəyir. Bu da öz növbəsində region dövlətlərinin ortaq iqtisadi maraqlarda bir araya gələcəklərini proqnozlaşdırır.

Nəticə olaraq Pakistanın geostrateji möqeyinin dünyada əhəmiyyətli bir yerə sahib olduğunu bir daha vurğulamaq lazımdır. Qlobal hakimiyyət mübarizəsi son onilliklərdə Pakistanı iqtisadi və siyasi inkişaf baxımından müxtəlif çağırışlarla qarşı qarşıya gətirib. Iqlim dəyişikliyinin fəsadları 2010-cu və 2022-ci illərdə baş vermiş iri miqyaslı daşqınlarla özünü büruzə vermişdir. Daxili siyasi qeyri-sabitlik, terrorçuluqla mübarizə və iqtisadi çətinliklər ölkənin inkişafına maneə törədir. Regionda artan nüvə arsenalı hərbi eskalasiyalar zamanı daha çox təhlükəyə rəvac verir. Pakistan strateji tərəfdaşlıq və iqtisadi islahatlar vasitəsilə öz mövqeyini gücləndirməyə çalışır.

## *4.Pakistanın Müdafiə Strategiyası və Hərbi Siyasəti*

### *4.1.Pakistan Ordusunun gücü və strukturu*

Pakistanın müdafiə strategiyasının siyasi əsasını milli maraqları daxilində vahid dövlət anlayışı təşkil edir. Hindistanla 1947- ci ildən bu yana aparılmış dörd müharibə zamanı Pakistan hərbi və siyasi nöqteyi-nəzərdən məğlub edilmişdir. Buna da uyğun olaraq ərazi ələ keçirməsinə baxmayaraq eyni zamanda ərazi də itirmişdir [13]. Hindistanın indiki siyasi rəhbərliyinin “Hindutva İdeologiyası” bütün Cənubi Asiya üzərində hegomoniyanı hədəfləyir [14]. Hərbi nöqteyi nəzərdən Pakistanın coğrafi mövqeyi çox həssasdır. Ölkə şimaldan cənuba dar bir dəhliz kimidir [Şəkil 2]. Hindistanın hərbi təhdidini nəzərə alsaq, qoşunların Pakistanın 300-400 km dərinliyinə girməsi ölkəni ikiyə bölə bilər. Ölkənin əsas iqtisadi, hərbi potensialının Lahor-Kəraçi həddinin şərqində olması, ehtimal olunan bir

 

müharibə zamanı ayrıca bir zəiflik təşkil edir. Bu həddlərdə ərazi qoşunların sürətlə irəliləməsi və yerləşməsini təmin edir. Bu da ölkənin hərbi potensalına uyğun doktrinanın olmasını tələb edir. Pakistanın nüvə və müdafiə doktrinası, yaranmış hərbi təhdidlərin, ölkəni təsiri altına almadan dəf edilməsinə dayanır. Konvensional olaraq müdafiə əməliyyatlarından başqa, strateji səviyyədə preemptiv, preventiv hücum reydləri (Ripost strategiyası), minimumçəkindirici nüvə konsepsiyasıyla bərabər "İkinci Nüvə Zərbəsi Endirə Bilmə Qabiliyyəti" müdafiə strategiyasının əsasını təşkil edir [15].

Hərbi və müdafiə xərclərinin miqdarına görə Pakistan 2025-ci ilə görə dünyanın orduları sıralamasında 145 ölkə arasında 12-ci yerdədir. Qabiliyyət və qüvvə etibarilə konvensional, kontrproksi və nüvə silahı tətbiqi imkanlarına sahibdir.




**Şəkil 2.**

Təşkilati struktur etibarilə konvensional silahlı qüvvələr, Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Proksi Bölmələrdən ibarədir.Hindistan göstərici olaraq 4-cü yerdədir [16].

Quru Qoşunlarının aktiv şəxsi heyətinin sayı 660000, ehtiyat şəxsi heyəti 500000 nəfərə yaxındır. Milli Qvardiya başda olmaqla 300000-ə qədər şəxsi heyət proksi bölmələrdə xidmətdədir. Səfərbərlik ehtiyatlarında yaş həddi 16-23 olmaqla 5000000 vətəndaşın olduğu güman edilir [17]. Hər qoşun növünün komandanlığı və qərargahları, Pakistan Silahlı Qüvvələri Birləşmiş Qərargahından (BQ) idarə olunurlar. Orduya rəhbərlik və idarəetmə BQ-nin komandanı tərəfindən müvafiq doktrinaya uyğun olaraq həyata keçirilir. Aktiv xidmət aparan doqquz Ordu Korpusunun yeddisi (ikisi mexanizə korpus ordu ehtiyatı olmaqla) şərq sərhədləri boyunca, digər ikisi qərb sərhədlərinə görə yerləşir. Quru qoşunları arsenalında ABŞ, NATO, Sovet-Rus, Çin, və Çinlə birgə istehsal olan silah, texnika, sursatlar var. Bu amil öz növbəsində təminat və təhcizat zəncirində məhdudiyyətlər yarada bilməkdədir.

Hərbi Hava Qüvvələri dünyada 7-ci yerdədir [16]. Əsas vəzifəsi, ehtiimal olunan müharibədə Pakistanın mütləq hava üstünlüyünun və qoşunlara hava dəstəyinin təmin etməsindən ibarətdir. Şəxsi heyətinin sayı 78000-ə yaxındır. Arsenalında ABŞ, NATO, Fransa, Sovet-Rus,Türkiyə, Çin, və Çinlə birgə istehsal olan hərbi təyyarələr və uçuş aparatları var. Pakistan Milli Aeronavtika Texniki Parkı (NASTP- National Aero-Space Technical Park) Hərbi Hava Qüvvələri və Müdafiə Sənayesi ilə sıx əməkdaşlıq aparır. Türkiyə Respublikası şirkətləri ilə birgə tədqiqat, yeniləmə, modernizasiya proqramlıarı həyata keçirilir.

Hindistan Hərbi Hava Qüvvələri dünyada 6-cı sırada qərarlaşıb [17]. 2019- cu il baş verən hərbi eskalasiya zamanı Pakistanın hava üstünlüyünü mütləq şəkildə əldə saxlaması, Hindistan hökümətini hərbi hava qüvvələrinin dərhal yenilənməsinə sövq etdi. Hindistanın təyyarə arsenalında artıq ikinci nəsil döyüş təyyarəsi yoxdur.

Hərbi Dəniz Qüvvələri əsasən Pakistanın ərazi və cavabdehlik sularında xidmət aparır. Hindistanla baş vermiş müharibələrin ilk ikisində tərəflərin dəniz gücündən istifadə olunmayıb. 1971-ci ilin müharibəsi zamanı Hindistanın, Pakistana aid hərbi gəmisni öz cavabdehlik ərazisində batırması Pakistanın Hərbi Dəniz Qüvvələrinin potensialının gücləndirilməsi ehtiyyacını ortaya qoydu. Pakistanın stratejik inkişaf strategiyasında transmilli lahiyələr və nəqliyyat dəhlizlərinin ən kritik hissəsi, liman şəhərlərində və Oman dənizində nəzarətin itirilməsidir. Dünya sıralamasında 27-ci yerə sahib olan Pakistan Hərbi Dəniz Qüvvələri 124000-in üzərində şəxsi heyətə sahibdir [16]. Öz aviasiya imkanları olan qoşunların arsenalında ABŞ, İngilis, Fransız, İspan, Çin istehaslı olan müxtəlif növ vasitələri vardır. Pakistan bu istiqamətdə də əsasən Çİn və Türkiyə ilə sıx əməkdaşlıq aparmaqla arsenalını qüvvətləndirməkdədir. Hərbi Dəniz Qüvvələrinin bazasında Kəraçi Limanında Milli Dəniz İnformasiya İdarəetmə Mərkəzi (NMIMC-National Marytime İnformation Managment Center) fəaliyyət göstərir. Sahil, cabvabndehlik, və neytral sularda bütün fəaliyyətlərə dinamik nəzarət və qarşılıqlı əlaqə bu mərkəzdən həyata keçirilir. Mərkəz bir çox ölkəylə şəbəkə üzərindən informasiya mübadiləsi aparır.

Hindistan Hərbi Dəniz Qüvvələri strateji Əməliyyat Təyyarə Daşıyan Gəmisi olmaqla dünya sıaralamasında 5-ci yerdə qərarlaşıb [17]. 2018-2019-cu illərdə baş vermiş son hərbi eskalasiya zamanı Pakistanın cənubunda neytral sularda, Hindistanın atom reaktorlu sualtı qayığının peyda olması ehtimal edilən bir müharibə zamanı Hindistan Dəniz Qüvvələrinin hansı vəzifəni icra edəcəyini ortaya qoymuş oldu. 2024-cü ilin oktyabr ayından nüvə döyüş başlığı daşıma imkanına sahib daha iki ədəd atom reaktorlu sualtı qayığın inşası proqramı həyata keçirilir. Bu da Hindistanın İkinci Nüvə Zərbəsi Qabiliyyəti imkanının və dənizdən nüvə silahı tətbiq etmə gücünün artırılması deməkdir.

Proksi Bölmələr Pakistan Ordusunun ən çox mübahisəli və müzakirəli tərəfidir. Kəşmir münaqişəsinin əvvəlindən "Ləşkərlər" olaraq bilinən bu qüvvə müharibələr dövründə və bir çox silahlı münaqişələrdə iştirak ediblər. Pakistanda hal-hazırda qərb ərazilərində daha çox istifadə olunurlar. Əsas vəzifələri təhdidlərin əmələ gəldiyi regionlarda və düşmən arxasında fəaliyyət göstərməklə proksi, kontrproksi əməliyyatlar həyata keçirməkdən ibarətdir. Eyni zamanda xarici dövlətlərin də ərazilərində taktiki əməliyyatlar həyata keçirirlər. Qərb Mediasında Pakistanın Gizli Ordusu deyə də təbliğ olunurlar. Əsas imkanları Milli Qvardiyanın tərkibində birləşdirilmiş olmasına baxmayaraq müxtəlif dövrlərdə fərqli qruplaşmaların da adları çəkilməkdədir. Ləşkəri Cəngvi (LeJ- Lashkar-e- Jangvi), Ləşkəri Taliblər (LeT-Lashkar-e- Talib), Haqqani Şəbəkəsi və s kimi silahlı proksi bölmələrin tərkibində olduqları çox zaman özləri tərəfindən elan olunmaqdadır. Proksilərin struktur liderlərinin əksəriyyəti pakistan ordusunun keçmiş əməkdaşlarıdır. Bu qrupların Pakistan dövləti tərəfindən terrorçu qruplar kimi tanınması da dünya mediyasında birmənalı qarşılanmamaqdadır [16, s.32].

Hər qoşun növünün öz Xüsusi Təyinatlı Qrup Komandanlığı (SSG-Spdecial Service Group) və vəzifələrinə müvafiq bölmələri vardır.

Pakistan Ordusunun qeyri müharibə vəzifələri də vardır. Əsasən təbii fəlakətlərin, humanitar böhranların təsirlərinin əvvəlcədən müəyyən edilməsi, qarşısının alınması və aradan qaldırılması fəaliyyətləri Milli Böhran və Təbii Fəlakətlərin İdarə Olunması Agentliyi (NDCMA- National Disaster and Crisis Managment Authority) tərəfindən İdarə olunur. Agentliyə rəhbərlik Pakistan Ordusunun Ali rütbəli zabitlərinə həvalə edilir. Agentliyin qərargahı İnteraktiv müşahidə təhlil və idarəetmə proseslərini ən yeni informasiya texnologiyaları üzərindən həyata keçirir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb

Əmirlikləri, Misir Respublikası, Türkiyə və Çin ilə vahid şəbəkə üzərindən koordinasiya halında fasiləsiz olaraq fəaliyyət göstərirlər.

Pakistan ordusu Birləşmiş Millətlər Təşkilatı (BMT) proqramlarında aktiv iştirak edir. Beynəlxalq missiyalarda hərbi komponentlərin yaradılmasında ən çox nümayəndə təmin edən ölkələrdən biridir.

### *4.2.Nüvə proqramı və hərbi texnologiyalar*

Pakistan nüvə silahına sahib olan yeganə müsəlman ölkəsidir. Nüvə texnologiyaları və mütəxəssislər 1955-ci ildə "Marşal Planı" çərçivəsində "Sülh Məqsədli İstifadə" proqramına görə ABŞ tərəfindən Pakistana verilməklə sivil məqsədli ilk tədqiqat mərkəzi - Pakistan Atom Enerjisi Komissiyası (PAEC- Pakistan Atomic Enerjy Commission) qurularaq fəaliyyətə başlayıb. Regionda nüvə silahı tədqiqatları Çin, Hindistan, tərəfindən də aparılırdı. Hindistan və Pakistan nüvə silahının yayılmasına qarşı konvensiyalara qoşulmayıb. 1965-ci il müharibəsi Hindistan və Pakistanın nüvə silahına sahib olma yarışını sürətəndirmişdir. Dövrün baş naziri Zülfiqar Bhuttonun məhşur sözləri bu rəqabətin ciddiliyinə dəlalət edir. "Əgər Hindistan nüvə silahını düzəldirsə, biz ot, yarpaq yeməli, ac gəzməli olsaq belə ən azı bir ədəd nüvə silahımızı yaratmalıyiq". 1971-ci il müharibəsi hər iki ölkənin nüvə silahı qabiliyyəti ilə irəlidəki müharibələrdə, çakindirmə üstünlüyü qazanmaq arzularını gücləndirdi.

Baş nazir Zülfiqar Bhuttonun hakimiyyəti dövrünə təsadüf edən 1972-ci ildə pluton əsaslı, 1974-cü ildə uran əsaslı nüvə silahı yaratmaq üçün dövlət proqramları gizli olaraq həyata keçirilməyə başlanıb [15, s.34]. 1974-cü il Hindistanın nüvə silahının ilk sınaqları həyata keçirildikdən sonra 1998-ci il Hindistanın növbəti iki nüvə sınağından sonra, Pakistan birincisi 28 may tarixində olmaqla beş sınaqla nüvə silahına sahib olduğunu dünyaya elan etmiş oldu. Nüvə silahının tətbiqi doktrinası, komanda və idarəetmə sistemi 1999-cu il prezident Pərviz Müşərrəf dövründə yaradılmışdır. Pakistanın formal olaraq ayrıca təsdiq edilmiş bir nüvə doktrinası yoxdur [18]. Nüvə silahı milli təhlükəsizliyin müdafiəsi üçün hərbi güc tətbiqinin əsas amillərindən biridir.

Nüvə silahının istifadə və idarə olunması, Milli Komandanlıq Səlahiyəti, Strateji Planlar Divizionu, Strateji Tətbiq Qüvvələri tərəfindən həyata keçirilir.

Milli Komandanlıq Səlahiyəti (NCA-National Command Authority) nüvə silahı üzərində qərar və nəzarət orqanıdır. Baş Nazirin rəhbərliyində Milli Təhlükəsizlik Müşaviri hökümət və silahlı qüvvələrin təmsilçilərindən ibarət olan təşkilati sturuktura sahibdir. Nüvə silahının tətbiqi siyasəti (istehsal, tədqiq, yerləşmə, qoşun növü, platforma və s) təlimi və bütün nəzarət bu qurumun səlahiyyətindədir.

Strateji Planlar Divizionu (SPD- Strategic Plans Division) Milli Komandanlıq Səlahiyətinin (NCA) katibliyidir. Ordudan seçilmiş Baş Direktor tərəfindən idarə olunur. O nüvə silahının əməliyyat təhlükəsizliyinə məsuldur.

Strateji Planlar Divizionu (SPD) üç qoşun növünü ehtiva edən zabitlərdən təşkil olunur. Nüvə qabiliyyətinə və təlimlərinə fasiləsiz nəzarət, ayrı-ayrı hər bir nüvə silahının yerləşdiyi obyektlərin daxili və xarici perimetrinin mühafizəsi və müdafiəsi bu divizion tərəfindən həyata keçirilir. 20000-ə yaxın seçilmiş şəxsi heyətə sahibdir. Seçim prosesi Pakistan Kəşfiyyat Xidməti (ISI - Inter-Services Intelligence) tərəfindən şəxsi uyğunluq (PRP-Personnel Reliability Programme), insan uyğunluğu (HRP- Human Reliability Programme) proqramları əsasında icra edilir.

Strateji Tətbiq Qüvvələrində hər üç qoşun növünün strateji komandanı var. Əməliyyat rəhbərliyi Milli Komandanlıq Slahiyyətindədir (NCA). Bu komandanlar zərbənin hədəfə endirilməsinə məsul şəxslərdir. Pakistan səthdən-səthə və havadan səthə olmaqla iki tip platformalara sahibdir. Quru Qoşunlarından olan komandan səthdən səthə olan platformalara cavabdehlik daşıyır. Bu platformalaların yerləşdiyi ərazilər uçuşa qadağan zonalardır. Hərbi Hava Qüvvələri Strateji Tətbiq Qüvvələrinin tərkib hissəsi olmaqla bərabər, bütün nüvə arsenalının srateji mühafizə və müdafiə vəzifəsini icra edir.

Pakistanla Hindistan arasında 1999-cu ildə imzalanmış müqaviləyə əsasən iki ölkə arasında heç bir şəkildə nüvə obyektlərinə hücum etməmək razılığı əldə edilib. Nüvə silahı tətbiqi ehtimal olunan müharibədə "Birinci Nüvə Zərbəsi" endirməmək, legitim hərbi hədəflərə zərər vurulması prinsipi razılaşdırılıb. Pakistan "İkinci İstifadə Edən Tərəf" doktrinasını qəbul etmir. Başlıca olaraq Hindistana qarşı çəkindirmə prinsipi əsas olsa belə, Hərbi Hava Qüvvələrinin imkan və qabiliyyətlərinin zəifləndilməsinə, məhv edilməsinə) yönəlmiş hər hansı bir əməliyyata qarşı "Sürpriz Birinci Zərbə" Pakistan nüvə doktrinində yer almaqdadır. Aşağıdakı bir neçə halda nüvə silahının tətbiqi qaçılmazdır [19].

- əgər Hindistan Pakistana konvensional silahlarla hücum edərək ölkənin əsas hissəsini ələ keçirərsə;
- Hindistan Pakistanın Hərbi Hava Qüvvələrini böyük ölçülərdə itkiyə məruz qoyarsa;
- Hindistan Pakistanın nəqliyyat dəhlizlərini bağlamaqla iqtisadi böhrana məruz qoyarsa;
- Hindistan Pakistanı böhrana salmaq üçün böyük miqyasda iğtişaşlar yaratmaq üçün ölkə daxilində proksi elementləri hərəkətə keçirməyə cəhd edərsə.

Nəticə olaraq hərbi güc Pakistanın milli təhlükəsizliyinin təmin edilməsi strategiyasının əsas amilidir, hökümətin daxili və xarici siyasətinin istiqamətləndirilməsində balans qüvvəsini təşkil edir. Hindistanın sürətlə inkşaf edən iqtisadi imkanları nəticəsində hərbi xərclərini böyük miqdarda artırması potensial təhdidləri daha da artırır. Nüvə silahının varlığı beynəlxalq terrorizm ölçüsündə daha böyük təhdit də yaradır. Atəş qurğularının əksəriyyətinin mobil olmasından əmələ gəlir. Bu platformalar kiçik bölmələrlə gizli şəkildə yerdəyişmələr edir. Ölkənin daxilində fəaliyyət göstərən proksi qrupların bu silaha yönəlmiş basqınları daxili, regional, beynəlxalq mühütdə böyük fəlakətələrə yol aça bilər. Böyük güclərin regiondakı vəziyyətdən yaranan qayğılarından ən əsası, nüvə silahı potensialının bu silaha sahib olmaq istəyən "gizli ölkələrə" ötürülməsidir [20, s.40]. Nüvə silahının yayılması nəzəriyyəsinə görə ölkələr Almaniya, İspaniya, Yaponiya, Cənubi Koreya, İran ola bilər. Adı çəkilən ölkələr nüvə texnologiyasına sahib olmaqla bərabər hakimiyyət mübarizəsini aparan aktorlarların açıq və ya gizli himayəsindədir. İsrail də bu ölkələrin arasındadır. Çünkü nüvə silahının sınağının aparılması və doktrinası haqqında İsrailin heç bir rəsmi açıqlaması yoxdur.

### *5.Daxili Təhlükəsizlik Siyasəti və Terrorla Mübarizə*

Milli təhlükəsizliyin əsas nüvəsi daxili təhlükəsizliyin təmin edilməsidir. Siyasi, iqtisadi sabitlik, sosial müdafiə və maddi rifah, daxili asayiş və insan hüquqlarının təmin edilməsi, təhsil və mədəni inkişaf kimi elementləri ehtiva edir. Pakistanda hal-hazırda bu elementlərin tam təmin edilməsində böyük təhdidlər mövcuddur. Bunları başlıca olaraq separatizm, dini və etnik radikalizm, terrorizm deyə ayıra bilərik.

#### *5.1.Separatizm, dini və etnik radikalizm*

Pakistanın qurucusu sayılan Məhəmməd Əli Cinnah "İnam-Birlik-İntizam" milli şüarın müəllifidir. Buradadakı "İnam" əslində "İman" sözünü ifadə edir. İslam əqidəsi cəmiyyətin sosial quruluşunun başlıca amilidir. Məzhəb və etnik ayrı-seçkiliyinin geniş yayıldığı Pakistanda fikir ayrılığı "Birlik" anlayışını pozur. Separatizm Pakistanın şərqində və qərbində özünəməxsus şəkildə yayılıb. Bunda daha çox marağı olanlar Pakistanın yaxın qonşuları İran, Əfqanıstan və Hindistandır. Hindistanın strateji milli marağı bütün Cənubi Asiyada hegomonluq etməkdən ibarətdir. Əfqanıstanın milli marağı Ərəb dənizinə çıxmaqla Böyük Puştunistan yaratmaqdır. İranın milli marağı bufer zona, vahid müstəqil Bəlucistan qurmaqdır. Ölkənin qərbində cəmiyyətin idarə olunması psixologiyası özünəməxsusdur. O hər hansı bir dövlətçilik prisiplərinə bənzəmir. Burda tayfa başçılarının səlahiyyətləri tayfa kodeksi ilə tənzimlənir [21, s.43]. Bəlucistan və Xeybər Puxtunxva əyalətlərində cəmiyyətin inkişaf etməməsi, şəriət qanunlarının gücünü əllərində vasitə edən tayfa rəhbərlərinə hökümətdən daha güclü imtiyazlar verir. Qəbilə üzvlərinin mütləq sədaqət kodeksi dövlətin

regional inkişaf islahatlarının həyata keçirilməsini çətinləşdirir. Bu əyalətlərin qərb qonşuluğunda yerləşən dövlətlərin əhalisinin etnik olaraq onlarla eyni olması, xarici təsir qüvvələrinin bölgənin daxili təhlükəsizliyini pozmasına imkan yaradır. ABŞ nin regionda bəslədiyi dini silahlı birləşmələr artıq hər hansı bir ideologiyanın mexanizmi olmaqdan uzaqlaşıb. Regional mənfəətlər və qazanc buradakı güc balansına öz təsirini göstərir [22]. Pakistanın güc strukturlarının, təhlükəsizlik bölmələrinin, milli qvardiya və ordunun bir hissəsinin bu regionda yerləşdirilməsi regionun tam nəzarətə götürülməsinə bəs etmir. Maddi rifahın regionda təmin olunmadığı müddətcə mümkün kimi də görünmür. Bu region Pakistan ordusu tərəfindən "*Əməliyyat Ərazisi*" adlandırılır.

Separatizmin fərqli bir təzahürü Pakistanın bir çox etnik qruplarına aid olmasından irəli gəlir. Pəncab və Sind əyalətlərində Hindistandan miqrasiya edən mühacirlər öz içərisində bir çox etniklərə bölünürlər. İqtisadi imkanların və maddi rəfahın əlçatan ola bilməsi baxımından bu iki əyalətin əvvəlki sakinləri ilə "mühacirlər" arasında etimadsızlıq var.

Separatizmi formalaşdıran amillərdən, əhalinin sayının çox olmasıyla yanaşı sinfi, sosial təbəqələşmə, etnik ayrıcalıq, iqtisadi inkişafın aşağı həddə olması, kasıblıq indeksinin xeyli yüksək olması, təhsilin hər kəsə əlçatan olmaması, şəriət qanunlarının hələ də əhalinin böyük hissəsi tərəfnindən daha üstün tutulması və s. sadalamaq olar. Pakistanda siyasi fikir ayrılıqları, milli birlik anlayışına ziddiyyət təşkil etməklə separatizmi qüvvətləndirməkdədir. Pakistanda müstəqilliyin ilk illərindən bu yana siyasi hakimiyyət demokratik və ya hərbi olmaqla dəfələrlə yer dəyişdirməkdədir [23]. Hakimiyyət yarışı uğruna maddi rifahın yüksəlməməsi hələ də davam edir.

*Terrorizm* qanla bəslənən, siyasi motivə dayanaraq əslində başqa məqsədlərə xidmət edən, əsasən sivil cəmiyyəti hədəf almaqla ictimaiyyəti qorxu içində və təzyiq altında saxlamaq üçün həyata keçirilən qanlı, silahlı fəaliyyətlərdir. Bir çox fərqli üsullarla icra olunmasına baxmayaraq məqsəd hər zaman eyni şəkildə qalmaqdadır. Hərb tarixinin inkişaf dinamikasına baxsaq,İnformasiya hərbi əməliyyatların bir hissəsi idi. Artıq hərbi əməliyyatlar transformasiya edərək informasiya müharibəsinin tərkibinə keçib. Terrorizm də müxtəlif miqyasa, formaya və fəaliyyət meydanlarına transformasiya edir. Pakistanda terrorizm daxili, regional və beynəlxalq mühütə təsir edəcək şəkildə formalaşdırılıb. Pakistan, regionda gedən hakimiyyət yarışında qlobal güclər arasında dosta çevrilməsinə imkan verilməyən dövlətdir [24]. Terrorizm, beşinci nəsil əməliyyat mühütünün komponenti olaraq geniş istifadə olunur. İstənilən müharibə, resursların mübarizəsi olaraq səciyyələndirilir. Bu resursların insan qaynağı Pakistandan təmin edilə bilinir. Maliyyə və maddi texniki təhcizat dəstəyi, bu proksiləri idarə edən güc mərkəzindən təmin edilir. Pakistanın "Əməliyyat Ərazisi" proksi ünsürlərlə müharibə meydanıdır.

### *5.2.Təhlükəsizliyin təmin edilməsi*

Pakistan dövləti bu müharibədə daxili təhlükəsizliyin təmin edilməsi üçün bütün resurs və imkanlarını səfərbər edir. Qərb əyalətlərində hər 7 nəfərə, polis və ya hərbçi olmaqla 1 nəfər təhlükəsizlik əməkdaşı düşür. 2018-ci ildən etibarən Əfqanıstanla sərhəd zonasına tam nəzarətin həyata keçirilməsinə başlanılıb. 2023-cü ildən etibarən əfqan əsilli miqrantların geri köçürülməsinə başlanılıb. Əfqanıstan hökümətinin bu siyasəti dəstəkləmədiyi ərazidəki terror hücumlarının artırmasından bilinir. Taliblərin hakimiyyətə gəlməsi Pakistan əleyhinə fəaliyyət göstərən Təhriki Talib Partiyasının Əfqanıstandan fəaliyyət göstərməsinə şərait yaradır (Pakistan tərəfindən TPT silahlı terrorçu qruplaşması kimi qəbul edilir). Əfqanıstan hakimiyyəti onları azadlıq döyüşçüsü adlandırır və üzvlərinin Əfqanıstanda yerləşməsinə imkan yaradır. TPT ən çox Pakistan ordusuna aid şəxsləri, qurum və təşkilatları, habelə polisləri və təhlüksizlik orqanlarının qurumlarını hədəf alır. Çin-Pakistan əməkdaşlığı, əsasən də Cin-Pakistan İqtisadi Koridoru (CPEC) TPT- nin prioritet hədəflərinin önündə gəlir. Bu əməkdaşlığın regiona gətirəcəyi maddi rifah və iqtisadi inkişaf onlar üçün təhdid təşkil edir. Sərhəd təhlükəsizliyi və regional təhlükəsizliyin təmin olunmasının ağırlığı təkbaşına Pakistanın üzərinə düşməkdədir. Bəlucistan Azadlıq Ordusu (BLA İranın

hazırladığı proksilər. İran hakimiyyəti BLA-nı terrorçu qruplaşma kimi qəbul etsə də gizli şəkildə dəstəkləyir ərazilərində yerləşməsinə imkanlar yaradır) qonşu Pakistan ərazisindəki qohumlarını öz təsirləri altında saxlamaqda daha çox maraqlıdır.

2008-ci ildən başlayaraq Pakistan regionda nəzarətə ciddi şəkiildə nail olub. Pakistan ordusunun kontrterrorizm təcrübəsi xeyli inkişaf edib [15]. Pakistan ordusu və təhlükəsizlik qüvvələri 2014-cü ildən bu yana Əməliyyat Ərazisində irimiqyaslı antiterror əməliyyatları həyata keçirib. Və bu tədbirlərə ara verilmir. Terrorla mübarizə təcrübəsində sivil və hökümət qurumları arasında birgə fəaliyyət inkişaf etdirilir [25]. Sərhəd mühafizəsi və təhlükəsizliyin təmin edilməsində region və qonşu dövlətlərlə, digər regionlarda yerləşən dövlətlərlə Türkiyə, Səudiyyə Ərəbistanı, Şri Lanka Sosialist Respublikası, Birləşmiş Krallıq, ABŞ, Orta Asiya respublikaları ilə əməkdaşlıq aparılır.

Nəticə olaraq Pakistan daxili və regional təhlükəsizliyi təmin etməklə siyasi və iqtisadi blokadanı dəf etməyə çalışır. Anti- Pakistan narrativlərinə qarşı media imkanlarını və sivil qurumları hərəkətə keçirməklə, ölkənin yaratdığı imkanları və qarşılaşdığı çağırışları beynəlxalq ictimai mühütə çatdırır. Ölkədə fəaliyyət göstərən media qurumlarına fəaliyyət azadlığı verməklə cəmiyyətdə təbliğatın və təşviqatın, milli maraqlara istiqamətlənməsinə təkan verir. Qonşu dövlətlərlə "Yumşaq Güc" komponentlərindən istifadə etməklə əməkdaşlıq fəaliyyətlərini qüvvətləndirir.

## *6.Nəticə*

Nəticə etibarilə Pakistan Asiya qitəsində geostrateji olaraq mühüm yerdə yerləşir. Cənubi Asiyanı, Cənubi Şərqi Asiya, Orta Asiya, Yaxın Şərq və Afrika qitəsilə birləşdirir. Eyni zamanda İslam dünyası ilə mühüm bağ təşkil edir. Qlobal hakimiyyət mübarizəsi regional olaraq Pakistana təsir göstərməkdədir. Pakistan Silahlı Qüvvələri ölkənin milli təhlükəsizliyinin təmin edilməsində əsas amildir. Nüvə silahına sahib yeganə islam ölkəsidir. Hindistanın regional hakimiyyət hegomoniyasına can atması Pakistanı bir çox çağırışlarla üz-üzə qoyur.

Asiya qitəsində dünyanın güc balansı şərqə doğru dəyişir. ABŞ və qərb dövlətlərinin hakimiyyət yarışında tutduqları mövqe, inkişaf etməkdə olan dövlətlərə qarşı güclənməkdədir. İnkişaf etməkdə olan dövlətlər öz milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsi üçün yerli, regional, beynəlxalq əlaqələrini yenidən şəkilləndirir. Bütün güc amillərinin əhatəsində əməkdaşlıq fəaliyyətləri fərqli formatlarla qüvvətləndirilir. Pakistan indiki vəziyyətdə yumşaq güc faktorlarından istifadə etməklə öz balansını tənzimləməyə çalışır. İki tərəfli və çox tərəfli əməkdaşlıq əlaqələrini gücləndirməklə maddi rifahı yüksəltməyə çalışır.

## *7.REFERENCES*


1. Sachs, D. J. (2020). *The Age of Globalization* (information-analytic material). New York: Columbia University Press, 341 p. (In English)
2. Rossi, I. (2021). *Challenges of Globalization and Prospects for an Inter-Civilizational World Order* (information-analytic material). New York City: Springer, 825 p. https://doi.org/10.1007/978-3-030-44058-9 (In English)
3. Nye, J. S., Jr. (2004). *Soft Power: The Means to Success in World Politics* (information-analytic material). New York: Amazon Press, 206 p. (In English)
4. Eksi, M. (2016). *The Rise and Fall of Soft Power: Turkish Foreign Policy During JDP* (information-analytic material). Saarbrucken, Germany: Lambert Academic Publishing, 133 p. (In English)
5. Foreign Economic Relations Board. (2024). *Pakistan Country Report 2024* (analytical information source). Ankara: Ankara Publications, 46 p. (In Turkish)
6. McCartney, M. (2021). *The Dragon from the Mountains: The CPEC from Kashgar to Gwadar* (information-analytic material). New York: Cambridge University Press, 294 p. https://doi.org/10.1017/9781108991902 (In English)

7. Farhan, M. C. (2024). *Nuclear Flashpoint: The War over Kashmir* (information-analytic material). London: Pluto Press, 265 p. (In English)
8. Qayser, R. A. (2022). *Pakistan Factor and the Competing Perspectives in India* (information-analytic material). Islamabad: Palgrave Macmillan, 116 p. (In English)
9. Talbot, I. (2000). *Pakistan: Modern History* (information-analytic material). London: King Press, 223 p. (In English)
10. Crile, G. (2003). *Charlie Wilson's War: The Extraordinary Story of the Largest Covert Operation in History* (information-analytic material). Washington: U.S. Congress Library, 560 p. (In English)
11. New York Times. (2011, April 11). *Pakistan Tells U.S. It Must Sharply Cut C.I.A. Activities* [Electronic resource]. Retrieved from http://www.nytimes.com/2011/04/12/world/asia/12pakistan.html (In English)
12. Nawaz, S. (2019). *The Battle for Pakistan: The Bitter U.S. Friendship and a Tough Neighbourhood* (information-analytic material). New York: Penguin Books, 825 p. https://doi.org/10.5771/9781538142059(In English)
13. Rahman, T. (2022). *Pakistan's Wars: An Alternative History* (information-analytic material). New York: Routledge Press, 383 p. https://doi.org/10.4324/9781003254645 (In English)
14. Narayan, B. (2021). *Republic of Hindutva: How the Sangh is Reshaping Indian Democracy* (information-analytic material). London: Penguin Books, 133 p. (In English)
15. Belfer Center for Science and International Affairs. (2011). *Pakistan Military Report № 1: An Introduction to Pakistan's Military*. Cambridge: Harvard Kennedy School, 54 p. (In English)
16. Pakistan Today. (2025, January 30). *Pakistan Ranked 12th Global Military Power on GFP Index* [Electronic resource]. Retrieved from https://www.pakistantoday.com.pk/2025/01/30/pakistan-ranked-12th-global-military-power-on-gfp-index (In English)
17. GFP Index. (2025, January 12). *Country Index: Pakistan* [Electronic resource]. Retrieved from https://www.globalfirepower.com/country-militarystrengthdetail.php?country_id=pakistan (In English)
18. Arms Control Association. (2023, October 21). *Pakistan's Evolving Nuclear Doctrine* [Electronic resource]. Retrieved from https://www.armscontrol.org/act/2023-10/features/pakistans-evolving-nuclear-doctrine (In English)
19. Margalla Papers. (2008, May 5). *Pakistan's Nuclear Policy & Doctrine Ten Years Hence – Where Do We Go from Here?* [Electronic resource]. Islamabad. Retrieved from https://margallapapers.ndu.edu.pk/site/issue/download/25/226 (In English)
20. Narang, V. (2022). *Seeking the Bomb: Strategies of Nuclear Proliferation* (information-analytic material). Oxford, New Jersey: Princeton University Press, 400 p. https://doi.org/10.23943/princeton/9780691172613.001.0001 (In English)
21. Devasher, T. (2022). *The Pashtuns: A Contested History* (information-analytic material). Gurugram, Haryana, India: HarperCollins Publishers, 550 p. (In English)
22. Anthony, C. P. (2024). *Proxy War Ethics: The Norms of Partnering in Great Power Competition* (information-analytic material). Carlisle, Pennsylvania: Strategic Studies Institute, U.S. Army War College, 254 p. (In English)
23. Hussain, Z. (2022). *Hybrid Rule in Pakistan* (information-analytic material). Lahore: Vanguard Books, Maktaba Jadeed Press, 369 p. (In English)
24. David, P. (2022). *Toward a Phenomenology of Terrorism: Beyond Who is Killing Whom* (information-analytic material). Indiana: School of Criminology & Security Studies, Indiana State University, 262 p. (In English)

**25.** Larres, K., & Hof, T. (2022). *Terrorism and Transatlantic Relations: Threats and Challenges* (information-analytic material). Cham, Switzerland: Springer, 272 p. https://doi.org/10.1007/978-3-030-83347-3 (In English)

## *ƏDƏBİYYAT*

**1.** Sachs, D. J. (2020). *The age of globalization* (information-analytic material). New York: Columbia University Press, 341 p.
**2.** Rossi, I. (2021). *Challenges of globalization and prospects for an inter-civilizational world order* (information-analytic material). New York City: Springer, 825 p. https://doi.org/10.1007/978-3-030-44058-9
**3.** Nye, J. S., Jr. (2004). *Soft power: The means to success in world politics* (information-analytic material). New York: Amazon Press, 206 p.
**4.** Eksi, M. (2016). *The rise and fall of soft power: Turkish foreign policy during JDP* (information-analytic material). Saarbrücken, Germany: Lambert Academic Publishing, 133 p.
**5.** Dış Ekonomi İlişkiler Kurumu. (2024). *Pakistan ülke raporu 2024* (analitik bilgi kaynağı). Ankara: Ankara Yayınları, 46 s.
**6.** McCartney, M. (2021). *The dragon from the mountains: The CPEC from Kashgar to Gwadar* (information-analytic material). New York: Cambridge University Press, 294 p. https://doi.org/10.1017/9781108991902
**7.** Farhan, M. C. (2024). *Nuclear flashpoint: The war over Kashmir* (information-analytic material). London: Pluto Press, 265 p.
**8.** Qayser, R. A. (2022). *Pakistan factor and the competing perspectives in India* (information-analytic material). Islamabad: Palgrave Macmillan, 116 p.
**9.** Talbot, I. (2000). *Pakistan: Modern history* (information-analytic material). London: King Press, 223 p.
**10.** Crile, G. (2003). *Charlie Wilson's war: The extraordinary story of the largest covert operation in history* (information-analytic material). Washington: US Congress Library, 560 p.
**11.** New York Times. (2011, April 11). *Pakistan tells U.S. it must sharply cut C.I.A. activities*. Retrieved from http://www.nytimes.com/2011/04/12/world/asia/12pakistan.html
**12.** Nawaz, S. (2019). *The battle for Pakistan: The bitter U.S. friendship and a tough neighbourhood* (information-analytic material). New York: Penguin Books, 825 p. https://doi.org/10.5771/9781538142059
**13.** Rahman, T. (2022). *Pakistan's wars: An alternative history* (information-analytic material). New York: Routledge Press, 383 p. https://doi.org/10.4324/9781003254645
**14.** Narayan, B. (2021). *Republic of Hindutva: How the Sangh is reshaping Indian democracy* (information-analytic material). London: Penguin Books, 133 p.
**15.** Belfer Center for Science and International Affairs. (2011). *Pakistan military report № 1: An introduction of Pakistan military*. Cambridge: Harvard Kennedy School, 54 p.
**16.** Pakistan Today. (2025, January 30). *Pakistan ranked 12th global military power on GFP Index*. Retrieved from https://www.pakistantoday.com.pk/2025/01/30/pakistan-ranked-12th-global-military-power-on-gfp-index
**17.** GFP Index. (2025, January 12). *Country index Pakistan*. Retrieved from https://www.globalfirepower.com/country-militarystrengthdetail.php?country_id=pakistan
**18.** Arms Control Association. (2023, October 21). *Pakistan's evolving nuclear doctrine*. Retrieved from https://www.armscontrol.org/act/2023-10/features/pakistans-evolving-nuclear-doctrine

**19.** Margalla Papers. (2008, May 5). *Pakistan's nuclear policy & doctrine ten years hence – Where do we go from here?* Islamabad. Retrieved from https://margallapapers.ndu.edu.pk/site/issue/download/25/226
**20.** Narang, V. (2022). *Seeking the bomb: Strategies of nuclear proliferation* (information-analytic material). Oxford, New Jersey: Princeton University Press, 400 p. https://doi.org/10.23943/princeton/9780691172613.001.0001
**21.** Devasher, T. (2022). *The Pashtuns: A contested history* (information-analytic material). Gurugram, Haryana, India: HarperCollins Publishers, 550 p.
**22.** Anthony, C. P. (2024). *Proxy war ethics: The norms of partnering in great power competition* (information-analytic material). Carlisle, Pennsylvania: Strategic Studies Institute, U.S. Army War College, 254 p.
**23.** Hussain, Z. (2022). *Hybrid rule in Pakistan* (information-analytic material). Lahore: Vanguard Books, Maktaba Jadeed Press, 369 p.
**24.** David, P. (2022). *Toward a phenomenology of terrorism: Beyond who is killing whom* (information-analytic material). Indiana: School of Criminology & Security Studies, Indiana State University, 262 p.
**25.** Larres, K., & Hof, T. (2022). *Terrorism and transatlantic relations: Threats and challenges* (information-analytic material). Cham, Switzerland: Springer, 272 p. https://doi.org/10.1007/978-3-030-83347-3